## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

# YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycan muğamı: tarixi kökləri, fəlsəfəsi və ifaçılıq ənənələri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Fərhadova Sevil Məmməd Tağı qızı**
Qrantın məbləği: **85 000 manat**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/34/5-M-43**
Müqavilənin imzalanma tarixi: **10 mart 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2015-ci il – 01 oktyabr 2016-cı il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
|---|---|
| | *(burada doldurmalı)* “Azərbaycan muğamı: tarixi kökləri, fəlsəfəsi və ifaçılıq ənənələri” adlı layihənin, kökləri ilə erkən dövrə qədər uzanan muğam mədəniyyətinin təşəkkülünün və inkişafının tam miqyaslı mənzərəsini yaratmaq məqsədini qüdərək bu kimi işlər yerinə yetirilmişdir:<br>1. Obyektiv olaraq uzun illər ərzində öyrənilən problemin çoxölçülüyünü, çoxşaxəliyinin və eləcə də zamanın tələblərini nəzərə alaraq “Azərbaycan muğamı” iki əsas mövqedən-substansiya kimi, yəni vahid sistemyaradıcı mənbə və bədii ənənə kimi öyrənilmişdir.<br>2. Tədqiqatda əsas məsələ şərq dünyagörüşü və düşüncə vasitəsi ilə bağlı metodologiyanın seçilməsi ilə bağlıdır. Nəticədə layihənin rəhbəri S.M.Fərhadova tərəfindən rasional olduğu kimi, eləcə də irrasional düşüncə faktorlarını nəzərə alan şüur konsepsiyası metodoloji əsas kimi götürülmüşdür.<br>3. Apardığımız tədqiqat işində üç əsas məsələlər bloku seçilib və araşdırılıb:<br>a – muğam sakral elm kimi; |

b –muğam ənənə kimi;
c –muğam incəsənət sahəsi kimi.

Elmi mənbələrin toplanılması və tənqidi icmalı üç dövrü əhatə etməklə həyata keçirilmişdir:

1. Qədim və orta əsrlərə aid mənbələrin toplanılması (əlyazmalar, risalələr).
2. Sovet və postsovet dövrünə aid musiqişünaslıq, sənətşünaslıq, fəlsəfə, kulturologiya, ədəbiyyatşünaslıq və d. sahələrə aid mənbələrin toplanılması.
3. Müasir dövrün elmi yanaşmalarının nəzərə alındığı, Şərq dünyagörüşünə qayıdış tendensiyasının yayıldığı dövrə aid mənbələrin toplanılması. Bu prosesdə layihənin vahid konsepsiyasının müddəalarını, yəni :

a) muğamı dünya mədəniyyətinin mənəvi nüvəsi kimi,
b) şərq mədəniyyətinin təməl sistemi kimi,
c) etnik mədəniyyətin (ənənə çərçivəsində) təzahürü kimi və d) Azərbaycan mədəniyyətinin təməlinin təzahürü kimi təhlil olunmasına yardım edən ədəbiyyatlar toplanılmışdır. Ümumilikdə görülən iş iki əsas istiqamətdə aparılmışdır. Birincilər ümumiyyətlə musiqi (muğam) və mənəviyyat, musiqi (muğam) və idrak, musiqi (muğam) və etnos və s. arasındakı qanunauyğunluqları göstərən, musiqini (muğamı) daha çox kodlaşmış idrak prosesi kimi nəzərdən keçirən tədqiqat əsərləridir. İkincilər isə muğamı Azərbaycanın milli köklərinin və milli identikliyinin qoruyucusu olaraq təqdim edən əsərlərdir. Təbii ki, burada müqayisəli araşdırma imkanı qazanmaq üçün xarici dildə olan ədəbiyyatlar da toplanılmışdır. Buraya əsasən türk, rus və ingilis dillərində olan ədəbiyyatlar daxildir. Ümumilikdə 600-dən çox mənbə və saytoqrafiya materialı tədqiq edilmişdir.

Kökləri ilə qədim dövrə qədər uzanan muğam mədəniyyətinin təşəkkülünün və inkişafının tam miqyaslı mənzərəsini yaratmaq üçün araşdırılan məsələlər musiqişünaslığın çərçivəsindən çox kənara çıxır.

Mədəniyyətin bir hadisəsi kimi muğamın hərtərəfli işıqlandırılması ilk dəfə iki əsaslı tərəfin ayrılması ilə həyata keçirilib – muğam substansiya kimi və muğam bədii yaradıcılıq kimi.

4. Muğam irsinin mahiyyəti dünya mədəniyyəti formatında - aşağıdakı məsələləri həll etməsinə cəhd göstərilmişdir:

a) muğamı mənəvi mənbə kimi (idrak-nurlanma prinsipi) ;
b) muğam fikri-ideyasının trayektoriyası məsələsi araşdırılmışdır;
c) muğam fikrinin sakral həndəsəsinin konseptuallığı öyrənilmişdir;
d) ayin təcrübəsini muğam fikrini həyata keçirən forma kimi öyrənilmişdir;

Tutduğumuz mövgedən ilk dəfə muğam kod – sözü öz məntiqli izahatını tapır.

5.Muğam fikrini Şərq mədəniyyəti formatında - aşağıdakı məsələləri nəzərdən keçirməklə izlənilməsi həyata keçirilmişdir :

a) Muğam konseptual fikrinin ənənə statusunda coğrafiyası;
b) Muğam fikrinin dil-ifadə formaları;
c) Muğam mənəvi idrak sisteminin ruhi özəyi kimi;
d) Ayin mətninin konseptual muğam əsası;
i) Muğam və elm;

Azərbaycan muğamının substansiya və bədii yaradıcılıq kimi, öyrənilməsi aşağıdakı məsələlərin həlli ilə həyata keçirilmişdir:

a) İdrak prinsipi olaraq muğamın digər elm sahələri ilə - astrologiya, tibb, akustika və s. bağlılığı sübuta gətirilir.
b) Muğam təfəkkürünün ədəbi yaradıcılıq rakursunda üzə çıxması bədii, təsviri və tətbiqi yaradıcılıqda, xəttatlıq sənətində və bədii düşüncənin digər sahələrində izlənilmişdir.
c) “Bütün növ biliklərin vahid mənbəyi” – təfəkkür prosesi haqqında verilən təklif “konkret olmayan”, ruhi düşüncənin spesifikliyi və mahiyyəti haqqında irəli sürülən hipotezdə öz əksini tapır.

Təklif etdiyimiz elmi yanaşma muğam mənbəyinin öyrənilməsini şərtləndirən onun ilk mənasını

| | | |
|---|---|---|
| | dərk etməklə və nəticədə tədqiqatın predmetini və obyektini düzgün müəyyən etməklə öz həllini tapır.<br>6. İlk dəfə olaraq muğam sinkretik mətn kimi öyrənilimişdir və bu etnomusiqişünaslığa qonşu elm sahələrindən - fəlsəfə, ədəbiyyatşünaslıq sənətşünaslıqdan mütəxəssislər cəlb etməklə kompleks şəkildə vahid konseptual əsasa söykənərək kompleks şəkildə həyata keçirilir ki, bu da muğam sahəsində fənlərarası sistemli elmi tədqiqatların və muğamşünaslığın müstəqil elmi istiqamət kimi formalaşmasının əsasını qoyur.<br>7. Maraq sahəsinə İran, Ərəb, Türk, Hind, Yapon və s. ənənəvi muğam prinsipi ilə qurulan mətnlər cəlb edilmişdir. Xüsusi diqqət araşdırmada Şərq ənənəvi mədəniyyətinin səsin fenomenallığının duyulmasına yetirilir. Səsin sinkretik təbiətinl vurğulamaqla, hər bir səsin ayrılıqda konseptual məzmun daşıdığı haqqında fikrin dərki üçün zəmin yaranır.<br>8. Erkən dövrdən batini və zahiri dünyaların sərhədində həyata keçən ruhi axtarış – təşəkkülün ahənqdarlığı musiqinin bir təzahür kimi mahiyyətini müəyyənləşdirmişdir. Məhz ruhi təşəkkül qaydalarının sistemli dərki ilkin olaraq ruhi, eləcə də dünyavi elmin konseptual əsasını qoymuşdur.<br>9. İlk dəfə olaraq muğam sözünün mənasının məntiqi izahı verilir. Söz-kodların mövcudluğu haqqında ehtimal təqdim edilir və onların həndəsi işarələr və rəqəmlərlə ifadə edilən konseptual məzmununa nəzər yetirilir.<br>10. İlk dəfə olaraq ruhi dərketmənin və “ritual dairələr”in sistemi olan maariflənmənin mahiyyəti və sistemliliyi dərk edilir.<br>11. İlk dəfə olaraq muğamın genezisinin mənzərəsi təqdim edilmişdir<br>12 Seçilmiş mövqeyin həqiqiliyi əldə edilmiş nəticələrlə yoxlanılmışdır. Hazırki mərhələdə “Azərbaycan muğamı: tarixi kökləri, fəlsəfəsi və ifaçılıq ənənələri ” adlı monoqrafiyanın nəşri üçün materiallar xazırlanıb. Mətn üzərində redaktə işləri aparılır.<br>Şüur konsepsiyasından “ikinin təki” çıxış edərək eyni zamanda sistemli təhlil,epistmologiya, fenomenoloqiya, komparativist, koqnitiv, müqaisəli-tipoloji, ehtimal nəzəriyyəsi, musiqi semasioloqiya yanaşmaları istifadə olunub. | |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) | |
| | *(burada doldurmalı)*<br>100% | |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) | |
| | *(burada doldurmalı)* Şərq təfəkkürü və dünyagörüşünün daxili mənəvi amilə üstünlük verdiyi gerçəkliyin ikili – daxili mənəvi (aramsızlıq) və zahiri fiziki (diskret) mövcudluğu prinsipindən çıxış edərək muğam-dəstgah dramaturgiyasının məzmun tərəfini Azərbaycan klassik mənəvi irsinin təməlində duran konseptual özəyi kimi əsaslandırılır.<br>Muğamın mədəniyyət hadisəsi kimi işıqlandırılması ilk dəfə olaraq mahiyyətdən gələn iki istiqamətin fərqli mövqeləri baxımından - muğam-substansiya, yəni ümumi sistemyaradan başlanğıc kimi və muğam-bədii yaradıcılıq kimi həyata keçirilir.<br>Tədqiqatda bünövrəsi hələ ruh (hal) - axtarışına - nurlanmaya həsr olunmuş ayin təcrübələrində qoyulan muğam imarətinin quruculuğunun geniş panoramı yaradılır.<br>İlk dəfə olaraq muğamın sinkretik mətn kimi öyrənilir və bu etnomusiqişünaslığa qonşu elm sahələrindən - fəlsəfə, ədəbiyyatşünaslıq teatrşünaslıq, sənətşünaslıqdan mütəxəssislər cəlb etməklə kompleks şəkildə həyata keçirilir ki, bu da muğam sahəsində fənlərarası sistemli elmi tədqiqatların və muğamşünaslığın müstəqil elmi istiqamət kimi formalaşmasının əsasını qoyur. Muğam probleminin fənlərarası araşdırılması tədqiqatçılıq axtarışlarının sərhədlərini genişləndirir, onu dar ixtisaslaşmadan uzaqlaşdırır (bu da muğam kimi çoxsahəli təzahürün öyrənilməsi üçün | |

vacibdir) və Azərbaycanın vahid strateqiyaya əsaslanan bütöv mədəniyyət mənzərəsinin inkişafı üçün yeni üfüqlər açır, onun digər Şərq və qeyri Şərq mədəniyyətləri sistemində rolunu müəyyənləşdirir.

Problemin tədqiqi üçün seçilmiş yanaşma ilə muğam probleminin sistemli araşdırlmasında vahid konseptual bazaya əsaslanan təməl, başqa sözlə, müstəqil elmi istiqamətin yaradılmasının – muğamşünaslığın təməli qoyulur.

Nəticədə sırf musiqişünaslığın sərhədlərindən kənara çıxan bir sıra həllini tapmayan məsələlər məntiqi baxımdan izah olunmuşdur. Məsələn:

a) mərasim sisteminin yaranma və onun çoxəsrlik mövcudluğu səbəbi,
b) ritmik dairələrin konseptual məzmunu,
c) dinin musiqiyə mürəkkəb münasibəti və bir sıra başqa məsələlərin səbəbi öz həllini tapır.
d) Axtarışın nəticəsində ilk dəfə azərbaycan muğamının tərifi verilir.
e) Muğamın fəlsəfəsi sistemli şəkildə təqdim edilmişdir
f) Muğam bir düşüncə tərzi kimi təqdim və təhlil edilmişdir;
g) Muğam və idrak prosesi arasında paralellər aparılmış, muğamın musiqi vasitəsilə bir idrak prosesi olduğu göstərilmişdir;
h) Milli düşüncə tarixi kontekstində muğamın yeri və rolu göstərilmişdir;
i) Muğam və təsəvvüf arasında müqayisəli təhlil aparılmış, ümumi və spesifik cəhətləri şərh edilmişdir;
j) Muğam və siyasi termin kimi qəbul edilən "yumşaq güc" arasında paralellər aparılmışdır.
k) Muğamın multikultural mahiyyəti təhlil edilmiş, müasir Azərbaycan siyasətində tutduğu yer xüsusi diqqət ayrılmışdır.

Muğamın mahiyyətinin idrak prinsipi kimi dərk edilməsi humanitar və dəqiq elmlərin müxtəlif sahələrində tədqiqatlar üçün başlanğıc nöqtəsi ola bilər. Sırf təcrübi nöqteyi - nəzərindən bu tədqiqat işi ifaçılıq ənənəsinin qırılmış bağlarını bərpa etmək, onun varislik prinsipi əsasında gələcək inkişafını təmin etmək üçün istifadə oluna bilər.

Tədqiqatın nəticələri etnomusiqişünasılıqla yanaşı fəlsəfə, ədəbiyyatşünaslıq, dilçilik, kulturalogiya, sənətşünaslıq və digər humanitar elm sahələrində, həmçinin biologiya, tibb, riyaziyyat və fizika sahələrində istifadə oluna bilər.

4 Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

*(burada doldurmalı)*

1 Conceptual content of the Azerbaijani muqam-dastgah methodological basis for comparative research into the traditional oriental culture. Məruzələr № 2, 2015, 120 -124
2 Принцип неконкретного мышления как источник духовного знания «Central journal Asian of Art studies» (Məqalə çapa qəbul edilib).
3 "Həyatın ritmi" (0,4 ç.v.) - "Füyuzat" dərgisi (Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu – MİMTA), 6 (86), 2015, s. 34-36.
4 "Musiqi və idrak prosesi: paralellər, ortaq nöqtələr" (0,7 ç.v.)- AMEA-nın Xəbərləri (ictimai elmlər seriyası)", № 1, 2016, s.211-219.
5 "Muğam – Universal Harmoniyaya açılan qapı" (0,4 ç.v.) - "Füyuzat" dərgisi (Milli İrsi

Mədəni Tarixi Araşdırmalar Fondu – MİMTA), 6 (88), 2016, s. 23-25.

6 Hakikatin Özgün Bir İfadesi Olarak Müzik – Almıla Fikir ve Kültür Dergisi. Ankara, A Kitap yayınları, 2016, Güz sayısı. (*çapa qəbul edilmişdir*).

7 Mugham as a manifestation of Cognitive Process (Muğam idrak prosesinin təzahürü kimi) (0.6 ç.v.) – Böyük Britaniya JSTOR (*cavab gözlənilir*)

Bir məqalə Asiya Fəlsəfə Assosiasiyasının Kuala Lumpur şəhərində keçirilən (iyul 2016) 9-cu Konqresinə qəbul edilmişdir və Konfransın materiallarında dərc edilmişdir.

Mugham as the synthesis of the Eastern and Western thought

8 Процессуальность познания как концептуальная основа Тенгрианства

V-я Международная научно-практическая конференция «Тенгрианство и эпическое наследие народов Евразии: истоки и современность» состоялась 20-24 сентября 2015 года в СОК «Камчия», Болгария

5 İxtira və patentlər, səmərələşdirici təkliflər

*(burada doldurmalı)*

6 Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir)

*(burada doldurmalı)*

Layihə rəhbəri S.Fərhadova və layihə icraçısı Y. Bayramlı 2015 illn 27.09 – 2.10 altı gün müddətində İran İslam Respublikasının Tehran şəhərində ezamiyyətdə olmuşlar. Ezamiyyətin məqsədi - muğam-dəstqah və İran dəstqah ənənəsinin tədqiqi, Azərbaycan muğam irsi ilə, İran dəstgah mədəniyyətinin müqayisəli təhlili üçün material toplamaq, elmi mənbələrlə tanış olmaq, dəstqah ənənəsinə aid varislik və tədris və s.məsələlərinə nəzər yetirmək, eyni zamanda ümumi mədəniyyət haqqında təsəvvür yaratmaqla dəstqah irsinin müasir dövrdə əhəmiyyətini öyrənmək olmuşdur . Elmi axtarış zamanı CD, audio, video materiallar əldə edilmişdir.

27.09.2015 – ci il tarixində Tehran şəhərində cənubi Azərbaycandan olan Ağai Əsədullahi başçılıq edən Aərbaycan musiqisinin təbliğini həyata keçirən, eyni zamanda, onun zənginliyini qoruyub saxlayan bir qrup musiqiçilərlə “Azərbaycan mədəniyyət ocağında” görüş keçirilmişdir. Məclisdə poeziya ilə musiqinin vəhdəti, eyni zamanda, muğam, bəstəkar yaradıcılığına aid olan nümunələr səsləndirildi.

28.09 2015 Fəhrad Fəhraddininin rəhbərlik etdiyi simfonik orkestrlə görüş keçirildi. Ağai Fəhrad Fəhraddininin İran İslam Respublikasının tanınmış bəstəkar, dirijor, musiqişünas alimlərindən biridir. O, muğam ənənəsini avropa musiqi sistemi ilə sintezini həyata keçirərək, Avropa musiqi sisteminə xas olan simfonik orkestrin müşayəti ilə milli musiqini səsləndirdi.

29. 09. 2015 – ci il tarixində İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Orta əsrlərə məxsus olan əlyazmaların, eyni zamanda, muğam ənənəsinin zənginliyini özündə əks etdirən kitablarla yaxından tanışlıq məqsədilə “Milli kitabxananın” nadir fonduna baxış keçirilmişdir.

30.09.2015 - ci il tarixində İran muğam dəstgah ənənəsi ilə tanışlıq məqsədilə, İran İslam Respublikasının paytaxtı Tehran şəhərində “Vəhdət” sarayında “Şeyda” qrupunun ifasında “Çahargah”, “Humayun” muğamları dinlənilmişdir.

01.10.2015 – ci il tarixində Tehran şəhərində “Ərəsparan” sarayında milli alətlərdən ibarət olan

| | |
|---|---|
| | ansamblla görüş keçirilmişdir. Görüşdə tanınmış İran kamança ifaçısı Şəhram Saremi muğam dəstgah ifaçılığı və tədrisindən ətraflı məlumat vermişdir.<br>Görüşdə, eyni zamanda, Əhməd İbrahimin tələbəsi olan gənc xanəndə Şeyxzadə Sahidi muğam improvizasiyaları edərək, özünəməxsus ifaçılıq nümunəsini nümayiş etdirdi.<br>01.10.2015- ci il günün ikinci yarısında, ezamiyyət müddətində, muğam irsinin zənginliyinin tədqiqində bizə xüsusi qayğı və diqqət göstərən, İran İslam Respublikasındakı Azərbaycan səfiri Cənab Cavanşir Axundov və onun xanımı əməkdar incəsənət xadimi, Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Zümrüd Dadaşzadə ilə görüş keçirilmişdir.<br>Ezamiyyət müddətində əldə etdiyimiz məlumatlar və foto şəkillər lyihə çərçəvəsində işlənilən monoqrafiyada ətraflı şəkildə öz əksini tapacaq. |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)* |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)*<br>1.Noutbuk kompüter - 3 dəst<br>2.Çoxfunksiyalı printer 3-ü 1-də - 1 ədəd<br>3. 3-ü 1- də çoxfuksiyalı printer üçün – katric – 3 ədəd<br><br>Xarici yaddaş (Sərt disk) – Toşiba 1 Tb HDD - 3 ədəd |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | Layihə iştirakçısı T.Şirzadova tərəfindən ".Azərbaycan bədii mədəniyyətinin estetik prinsiplərinin formalaşmasında muğam ənənəsinin rolu" adlı dissertasiya işi uğurla müdafiyyə edilib və müəllif sənətşünaslıq üzrə fəlsəfə doktoru dərəcəsinə layiq görülüb. |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |

| | |
|---|---|
| | *(burada doldurmalı)* |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>http://www.science.az/news/open/2837<br>http://www.science.az/gallery/open/2837 |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

__________________
*(imza)*
" 10__" __oktyabr______ 2016_-cı il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

__________________
*(imza)*
" _10_" _oktyabr_______ 2016-cı il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Fərhadova Sevil Məmməd Tağı qızı

__________________
*(imza)*
" 10__" __oktyabr______ 2016_-cı il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Azərbaycan muğamı: tarixi kökləri, fəlsəfəsi və ifaçılıq ənənələri**
Qrantın məbləği: **85 000 manat**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/34/5-M-43**
Müqavilənin imzalanma tarixi: **10 mart 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2015-ci il – 01 oktyabr 2016-cı il**

### 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| 1 | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | *(burada doldurmalı)* Muğamın mədəniyyət hadisəsi kimi işıqlandırılması ilk dəfə olaraq mahiyyətdən gələn iki istiqamətin fərqli mövqeləri baxımından - muğam-substansiya kimi və muğam-bədii yaradıcılıq kimi həyata keçirilir.Tədqiqatda bünövrəsi hələ ruh (hal) - axtarışına - nurlanmaya həsr olunmuş ayin təcrübələrində qoyulan muğam imarətinin quruculuğunun geniş panoramı yaradılır. İlk dəfə olaraq muğamın sinkretik mətn kimi öyrənilir və bu etnomusiqişünaslığa qonşu elm sahələrindən - fəlsəfə, ədəbiyyatşünaslıq teatrşünaslıq, sənətşünaslıqdan mütəxəssislər cəlb etməklə kompleks şəkildə həyata keçirilir ki, bu da muğam sahəsində fənlərarası sistemli elmi tədqiqatların və muğamşünaslığın müstəqil elmi istiqamət kimi formalaşmasının əsasını qoyur. Muğam probleminin fənlərarası araşdırılması tədqiqatçılıq axtarışlarının sərhədlərini genişləndirir, onu dar ixtisaslaşmadan uzaqlaşdırır (bu da muğam kimi çoxsahəli təzahürün öyrənilməsi üçün vacibdir) və Azərbaycanın vahid strateqiyaya əsaslanan bütöv mədəniyyət mənzərəsinin inkişafı üçün yeni üfüqlər açır, onun digər Şərq və qeyri Şərq mədəniyyətləri sistemində rolunu müəyyənləşdirir. Problemin tədqiqi |

üçün seçilmiş yanaşma ilə muğam probleminin sistemli araşdırılmasında vahid konseptual bazaya əsaslanan təməl, başqa sözlə, müstəqil elmi istiqamətin yaradılmasının – muğamşünaslığın təməli qoyulur. Muğamın mahiyyətinin idrak prinsipi kimi dərk edilməsi humanitar və dəqiq elmlərin müxtəlif sahələrində tədqiqatlar üçün başlanğıc nöqtəsi ola bilər. Sırf təcrübi nöqteyi - nəzərindən bu tədqiqat işi ifaçılıq ənənəsinin qırılmış bağlarını bərpa etmək, onun varislik prinsipi əsasında gələcək inkişafını təmin etmək üçün istifadə oluna bilər.

Azərbaycan mədəniyyətinin tamlığı üçün baza rolu oynaması ilə şərtlənən muğam irsinə marağın azalmamasını bu problemə birbaşa və ya qismən həsr olunmuş elmi araşdırmalar da təsdiq edir. Bununla belə, muğam probleminə həsr edilmiş mövcud nəşrlərin (Z.Səfərova."Azərbaycan musiqi elmi " B.,1992; G.Abdullazadə "Azərbaycan muğamlarının fəlsəfi mahiyyəti" B.,1992; R.Zöhrabov "Muğam" B.,1991; "Azərbaycan muğamının nəzəri problemləri" B.,1992; R.İmrani "Azərbaycan muğamının tarixi" B.,1998; S.Fərhadova "Muğa-monodiya təfəkkür tərzi kimi" B.,2001; F.Çələbiyev "Dəstgahın morfologiyası" M.,2009 vəs.) olmasına, əhatə genişliyinə baxmayaraq, problemi hərtərəfli sistemli işıqlandırmağa dəstək ola biləcək vahid konseptual bazanın yoxluğu muğamşünaslığın statusunu elmi istiqamət kimi deyil, yalnız bilik sahəsi kimi təyin edir. Alimlərimizin Azərbaycan muğam irsinin tarixi və nəzəriyyəsinə, onun fəlsəfi məzmununa dair tədqiqatları bu hadisənin mahiyyətini dərindən dərk etmək üçün yeni perspektivlər açır. Lakin Azərbaycan elminin bütün nailiyyətlərinə baxmayaraq, sovet dövrünün "ideoloji çərçivəsi" əhəmiyyətli dərəcədə muğam probleminin əhatə dairəsini daraltmış, ona yalnız incəsənətin predmeti kimi və yalnız materialist mövqedən yanaşılmışdır. Bununla əlaqədar, muğam haqqında elmi fikir Azərbaycanın mənəvi bütövlüyünün konseptual məzmunu və təməli kimi yalnız indiki münbit siyasi və mədəni şəraitdə sürətli inkişafa başlayır.

Azərbaycan müstəqillik qazandıqdan üzü bəri muğam irsinə münasibət yaxşı mənada kifayət qədər dəyişmiş və artıq neçə illərdir ki, milli mədəni dəyərlər sırasında prioritet mövqeyə yüksəlmişdir. Məhz bu illər ərzində muğam irsinin bərpası, qorunması və inkişafı üzrə müxtəlif sahələrdən olan mütəxəsislərin apardıqları çalışmalar dövlətin rəsmi şəxsləri tərəfindən yüksək səviyyədə dəstəklənmişdir ki, bu da artıq öz bəhrələrini verməkdədir. Muğam üzrə kitab, jurnal və ensiklopediyaların nəşri, Azərbaycanın muğam klassikasının nailiyyətlərinin disklər vasitəsilə tirajlanması – YUNESKO və İSESKO-nun sülhməramlı səfiri xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi "Azərbaycan Mədəniyyətinin Dostları Fondu"nun dəstəyi ilə "Muğam dünyası" layihəsi çərçivəsində görülmüş və bu gün də görülən işlərin heç də tam siyahısı deyil. İkiildənbir keçirilən muğam üzrə beynəlxalq simpoziumların materialları elmi ümumiləşdirmələr üçün geniş meydan açır. Lakin eyni zamanda, onlar maraqlı informasiya daşıyır – avropasentrist mövqenin həddən artıqlığı aydın görünür ki, bu da elmin bu sahəsinin inkişafına mane olur.

| | |
|---|---|
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)*<br>İşlənilmiş layihə materialları monoqrafiya şəkilində təqdim edilib. |

2. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat |

proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində)

*(burada doldurmalı)* Muğamın mahiyyətinin idrak prinsipi kimi dərk edilməsi humanitar və dəqiq elmlərin müxtəlif sahələrində tədqiqatlar üçün başlanğıc nöqtəsi ola bilərTədqiqatın nəticələri etnomusiqişünasılıqla yanaşı fəlsəfə, ədəbiyyatşünaslıq, dilçilik, kulturalogiya, sənətşünaslıq və digər humanitar elm sahələrində, həmçinin biologiya, tibb, riyaziyyat və fizika sahələrində istifadə oluna bilər. Muğam genealogiyasının təhlili gələcəkdə multikulturalizm istiqamətində də öz tətbiqini tapa bilər.

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*
" 10__" _oktyabr________ 2016_-cı il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

____________________
*(imza)*
" _10_" _oktyabr________ 2016_-cı il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Fərhadova Sevil Məmməd Tağı qızı

____________________
*(imza)*
" 10__" _oktyabr________ 2016_-cı il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün elan edilmiş əsas qrant müsabiqəsinin (EİF-2013-9(15)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Azərbaycan muğamı: tarixi kökləri, fəlsəfəsi və ifaçılıq ənənələri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Fərhadova Sevil Məmməd Tağı qızı**
Qrantın məbləği: **85 000 manat**
Layihənin nömrəsi: **EİF-2013-9(15)-46/34/5-M-43**
Müqavilənin imzalanma tarixi: **10 mart 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2015-ci il – 01 oktyabr 2016-cı il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | | | monoqafiya |
| | həmçinin, xaricdə çap olunmuş | | | |
| 2. | Məqalələr | 5 | 1 | |
| | həmçinin xarici nəşrlərdə | | 1 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Konfrans materiallarında məqalələr | | | |
| | O cümlədən, beynəlxalq konfras materiallarında | 1 | | |
| 4. | Məruzələrin tezisləri | | | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | Dəyirmi masa | beynəlxalq | | 1 |
| 2. | Dəyirmi masa | ölkədaxili | | 2 |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

______________________
*(imza)*
" 10__" __oktyabr______ 2016_-cı il

**Baş məsləhətçi**
Qurbanova Səmirə Yaşar qızı

**İCRAÇI:**

**Layihə rəhbəri**
Fərhadova Sevil Məmməd Tağı qızı

______________________
*(imza)*
" 10__" __oktyabr______ 2016_-cı il